

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 80 (21.232)

25 aprel 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasına işgüzar səfərə gedib.

Aprelin 24-də Türkiyədə Çanaqqala zəfərinin 100 illiyi münasibətilə təntənəli mərasim təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Çanaqqala savaşlarında həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra yaylım atəşləri açıldı, Türkiyə Respublikasının Dövlət Himninin sədaları altında türk bayrağı səmada dalğalandı.

Çanaqqala savaşlarında həlak olanların ruhuna “Qurani-Kərim”dən ayə oxundu.

İttifaq dövlətləri adından Britaniya taxt-tacının vəliəhdi, Uels şahzadəsi Çarlz çıxış etdi.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı oldu.

Dövlət başçıları Çanaqqala döyüşlərində həlak olan əsgərlərin məzarlarını ziyarət etdikdən sonra “Mehmetçik” abidəsinin önündə “Şəhidlik dəftəri”ni imzaladılar.

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri başa çatıb.



## Akademik Zərifə xanım Əliyevanın elmi-pedaqoji fəaliyyətinə həsr olunmuş lektoriya keçirilib

*Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən lektoriyanı Gənclər və İdman nazirinin müavini Məcid Seyidov açıb.*

Lektoriyada çıxış edən Naxçıvan Dövlət Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Kamal Camalov Zərifə xanım Əliyevanın elmi-pedaqoji fəaliyyətindən bəhs edərək bildirib ki, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri olmuş Zərifə xanım Əliyevanın adı həm alim, həkim, ictimai xadim, həm də pedaqoq kimi hər bir insanın qəlbində yaşayacaqdır. Zərifə xanım görkəmli alim-oftalmoloqdur. O, eyni zamanda böyük filosof, gözəl pedaqoq və natiq idi. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri ilə bağlı oxuduğu mühazirələr bunu bir daha sübut edir.



Qeyd olunub ki, Zərifə xanım mətbuatda həkim etikası problemlərinə dair maraqlı məqalələr də dərc etdirib. Bunlardan birində oxuyuruq: “Yalnız o şəxs həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir. Vicdan əsas hakimimizdir. Ən çətin məqamda və ən xoş saatımızda o, bizimlə üzbəüz dayanıb soruşacaq: sənin ağ xalat geyinməyə haqqın varmı?”

Vurğulanıb ki, Zərifə xanım təkcə öyrətmirdi, həm də müəllimlik fəaliyyəti dövründə canlı peşəkarlıq və müdriklik siması təbliğ edirdi. Görkəmli alim bir çox sanballı tədqiqatların, o cümlədən 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 160-a yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Onun zəngin pedaqoji və elmi təcrübəsi “Oftalmologiyanın aktual məsələləri” monoqrafiyasında öz əksini tapıb. Bu kitab həm oftalmoloqlar, həm də həkimləri təkmilləşdirmə fakültələrinin müəllimləri üçün əsas elmi mənbədir. Zərifə xanım nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə də ciddi məşğul olub, həmin sahəyə dair iki monoqrafiya hazırlayıb. Bu monoqrafiyalardan “İridodiaqnostikanın əsasları” Bakıda, “İridodiaqnostika” isə Moskvada nəşr olunub. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazıb. O, dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktik olaraq elm aləmində yeni bir istiqamətin – “peşə oftalmologiyası”nın əsasını qoyub. Bu mənada oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi Zərifə xanımın adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları görkəmli alimə böyük şöhrət gətirib və onu dünya oftalmologiya məkanında məşhurlaşdırıb. Zərifə xanım elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənib və bu xəstəliklərin profilaktikası üsullarını işləyib hazırlayıb. Onun bu sahədəki ciddi axtarışları dünya tibb elmi ədəbiyyatında nadir tədqiqatlar sırasındadır. Akademik uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində genişmiqyaslı elmi-tədqiqat işləri aparıb, “Şin istehsalatında gözün peşə patologiyası”, “Xronik yod intoksikasiyası zamanı oftalmologiya” və “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” adlı qiymətli monoqrafiyalar yazıb.

Sonra lektoriya iştirakçılarını maraqlandıran suallar ətraflı cavablandırılıb.

Lektoriyaya Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirinin müavini Məcid Seyidov yekun vurub.

## Naxçıvanda Çanaqqala zəfərinin 100 illiyi qeyd olunub



*Əlahiddə Ümumqoşun Ordusunun təşkilatçılığı ilə Çanaqqala zəfərinin 100 illik yubileyi münasibətilə Naxçıvan Dövlət Musiqili Dram Teatrında tədbir keçirilib.*

Əvvəlcə “Bir millət, iki dövlət” adlı videoçarx və “Böyük savaş” sənədli filmi nümayiş etdirilib.

Çanaqqala döyüşləri və Azərbaycan Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra tədbiri giriş sözü ilə açan Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik Mirqiyas Rüstəmov bildirdi ki, Türk dünyasının möhtəşəm qələbəsi kimi tarixə qızıl hərflərlə yazılan Çanaqqala zəfəri türk tarixinin şərəfli səhifəsini təşkil edir. Bu döyüşlərdə azərbaycanlıların da iştirakı iki qardaş xalqın ən çətin məqamlarda birlikdə olduğunun əyani göstəricisidir. Çanaqqalada Osmanlı ordusunun şəhidləri arasında 3 minədək azərbaycanlının olması bu gün qardaş ölkə tərəfindən böyük ehtiramla xatırlanır.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Hacıqadir Qədirzadə çıxışında dedi ki, Çanaqqala zəfəri bütün Türk dünyasının qələbə günü, iftixar mənbəyi, qürur tarixidir. 1915-ci ildə qazanılmış bu qələbə türk millətinin gücünü bütün dünyaya nümayiş etdirdi. Mustafa Kamal Paşanın başçılığı ilə türk əsgəri Antanta İttifaqı kimi güclü donanmaya malik dövlətlərlə qeyri-bərabər döyüşlərdən qalib çıxdı, türk xalqının Vətən sevgisi, qətiyyəti və cəsarəti qarşısında diz çökən düşmən geri çəkildi. Düşmən üzərində qazanılan zəfərin 100 illiyinin qardaş ölkələr olan Türkiyə və Azərbaycanda böyük təntənə ilə qeyd edilməsi iki ölkə arasındakı birliyin və sarsılmazlığın əyani ifadəsidir.

Türkiyənin Naxçıvandakı Baş konsulunun vəkili Əhməd Özkan belə tədbirin təşkilini iki qardaş ölkə arasında günü-gündən güclənən birliyin ifadəsi kimi qiymətləndirdi. Bildirildi ki, Çanaqqala döyüşlərində şəhid olanların qəlbindəki Vətən sevgisi qələbənin qazanılmasında başlıca rol oynayıb. Əhməd Özkan Çanaqqala zəfərinin qardaş Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında yüksək səviyyədə qeyd olunmasına görə minnətdarlıq etdi.

Tədbirdə çıxış edən Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli diqqətə çatdırdı ki, Antanta İttifaqı dövlətlərinin əsas məqsədi Çanaqqala boğazını keçərək İstanbul şəhərinə gedən yolu açmaq, bütün Anadolu torpaqlarını işğal etməklə türkün buradakı varlığına son qoymaq idi. Lakin bu istəklərinə nail ola bilmədilər. Osmanlı ordusunun qətiyyətlə müqavimət göstərməsi, daha sonra əks-hücuma keçərək düşmənin ordu birləşmələrini darmadağın etməsi bir daha təsdiq etdi ki, türk millətinin iradəsini qırmaq mümkün deyil. Çanaqqala zəfəri bunun tarixi sübutudur. Bu qələbə türkün yenilməzliyini göstərdi, milli mücadilənin öndəri Mustafa Kamalı tarix səhnəsinə çıxardı.

Tədbirdə Heydər Əliyev adına Hərbi Liseyinin kursantlarının, Naxçıvan Dövlət Texniki Kollecinin tələbələrinin, Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdlərinin ifasında Çanaqqala zəfərini, Azərbaycan və Türkiyənin birliyini tərənnüm edən şeirlər səsləndirildi, “Çanaqqala zəfəri” adlı kompozisiya nümayiş etdirildi.

Hərbi qulluqçulardan ibarət bədii özfəaliyyət kollektivi üzvlərinin ifasında səsləndirilən vətənpərvərlik mahnıları tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı.

Sonda “Azərbaycan-Türkiyə birgə hərbi təlimi” adlı videoçarx nümayiş etdirildi.

*Dünən Naxçıvan Müəllimlər İnstitutunda “Təhsil kurikulumları: praktik tətbiqlər” mövzusunda respublika elmi konfransı keçirilib.*

## “Təhsil kurikulumları: praktik tətbiqlər” mövzusunda elmi konfrans



Konfransın plenar iclasını giriş sözü ilə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli açaraq tədbirin əhəmiyyətindən danışıb. Qeyd edilib ki, kurikulum dünyanın mütərəqqi təhsil modellərindən biri kimi hazırda geniş miqyasda tətbiq olunur. Konseptual sənəd kimi kurikulumun məzmununda standartlar, zəruri minimum, təhsil alanların hazırlığına qoyulan tələblər, texnologiya və qiymətləndirmə məsələləri əhatə edilir. Aparılan araşdırmalar nəticəsində belə qənaət hasil edilib ki, yeni təlim strategiyaları, o cümlədən fəal təlim, interaktiv metodların tətbiqi müəllimin peşəkarlıq səviyyəsinə yeni və kifayət qədər yüksək tələblər qoyur. O, nəinki elmdə təsdiqlənmiş ideyaları, həm də bu və ya digər məsələ üzrə mübahisəli mövqeləri, eləcə də bu mövqelərin əsaslandırılmasını bacarmalıdır. Təmsil etdiyi elm sahəsini yaxşı bilməli, yeni təlim strategiyalarının tətbiqi ilə bağlı bacarıqlara malik olmalıdır.

Plenar iclasda “Şəxsiyyətyönümlü kurikulumlar: problemlər və onların həlli yolları”, “Məktəbəqədər təhsil və ona verilən müasir tələblər”, “Riyaziyyat dərslərində motivasiyanın əhəmiyyəti”, “Məktəbəqədər kurikulumların tətbiqinin zəruriliyi” mövzularında Naxçıvan Dövlət Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Mirhəsən Eminovun, Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Lalə Allahverdiyevanın, Naxçıvan Dövlət Universitetinin dissertantı Aynurə Seyidovanın, Ordubad şəhər 3 nömrəli uşaq bağçasının tərbiyəçi-müəllimi Zülfiyyə Babayevanın məruzələri dinlənilib.

Sonra elmi konfrans beş bölmə iclasında öz işini davam etdirib. “Ümumtəhsil məktəblərində şəxsiyyətyönümlü kurikulumların tətbiqi yolları”, “Nəticəyönümlü kurikulumların tətbiqi”, “Kurikulumların tətbiqində dərs nümunələri”, “Məktəbəqədər müəssisələrdə kurikulumların tətbiqi yolları”, “Kurikulumda strategiyalar” adlanan bölmə iclaslarında muxtar respublikanın ali və ümumtəhsil məktəblərinin müəllimləri ilə yanaşı, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu və Gəncə Dövlət Universiteti əməkdaşlarının da məruzələri dinlənilib.

Sonda bölmə iclaslarının yekun nəticələri müzakirə olunub, geniş fikir mübadiləsi aparılıb. Bununla da, elmi konfrans öz işini başa vurub.

**Xəbərlər şöbəsi**

## Ali təhsil ocağında beynəlxalq elmi-praktik konfrans keçirilib

*Naxçıvan Dövlət Universitetində (NDU) “Müasir arıçılığın problemləri və inkişaf xüsusiyyətləri” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib. Konfrans iştirakçıları əvvəlcə ali məktəbin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin foyesində universitet əməkdaşlarının arıçılıq sahəsinə aid kitablarından ibarət sərgiyə baxıblar.*



NDU-nun müəllim və tələbələri ilə yanaşı, ölkəmizin bir sıra ali təhsil ocaqlarının, həmçinin Türkiyənin Qars Qafqaz, Qara Dəniz Texniki universitetlərindən dəvət olunmuş mütəxəssis alimlərin, Zonquldaq, Qars, Ərdahan, Artvin Arıçılar birliklərinin əməkdaşlarının, muxtar respublikanın aidiyyəti qurumlarının, arıçı sahibkarların iştirak etdiyi beynəlxalq elmi-praktik konfransı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb. Rektor Azərbaycanda qədim tarixə malik arıçılığın X-XII əsrlərdə daha da inkişaf etdiyini, halallıq və zəhmətsevən əsas aqrar sahələrdən biri olduğunu bildirib. Qeyd olunub ki, regionda kənd təsərrüfatının digər sahələri kimi, arıçılığın da inkişafına dövlətimiz tərəfindən yüksək qayğı göstərilir. Bu sahə ilə məşğul olan sahibkarlara dövlət tərəfindən güzəştli kreditlər verilir, arıçılıq məhsullarının idxal və ixracına əlverişli şərait yaradılır. Sonra rektor Saleh Məhərrəmovun “Miqrasiyanın arıların parazitofaunasına təsiri” mövzusunda məruzəsi dinlənilib.

Konfransda çıxış edən Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı naziri Elşad Əliyev muxtar respublikada arıçılığın inkişafından danışıb. Nazir bildirib ki, Naxçıvanda arı ailələrinin artırılması, eləcə də məhsuldarlığın yüksəldilməsi üçün davamlı tədbirlər görülür. Bu sahənin inkişaf etdirilməsi üçün 2014-cü ildə banklar tərəfindən arıçılıqla məşğul olan sahibkarlara 534 min manat həcmində kreditlər verilib. Bütövlükdə, 2000-2014-cü illər ərzində dövlətin maliyyə dəstəyi ilə 103 arıçılıq layihəsi həyata keçirilib, Sahibkarlığa Kömək Fondunun güzəştli kreditləri hesabına 6000-dən çox arı ailəsi alınıb. Kənd Təsərrüfatı nazirinin sözlərinə görə, göstərilən dövlət qayğısı hesabına 1 yanvar 2015-ci il tarixə arı ailələrinin sayı 69 min 432-yə çatdırılaraq bir il öncəki göstəricini 1,1 faiz üstələyib.

Trabzon Qaradəniz Texniki Universitetinin professoru Sevgi Kolaylı “Arı məhsullarından gələn sağlamlıq” mövzusundakı məruzəsində Türkiyədə arıçılığın inkişafı, geniş yayılmış arı cinsləri, iqtisadi göstəricilər barədə slaydlar şəklində ətraflı məlumat verib.

Azərbaycan Arıçılar Birliyinin sədr müavini Elxan Ələkbərov “Azərbaycanda arıçılığın mövcud vəziyyəti” mövzusundakı məruzəsində arıçılığın gəlirli sahəyə çevrilməsi üçün arı ailələrinin bəslənməsi, çoxaldılması, məhsuldarlığının artırılması məqsədilə arı xəstəliklərinin vaxtında aşkarlanması, yaranma səbəblərinin aydınlaşdırılması və onlara qarşı görülməsivacib mübarizə tədbirlərindən bəhs edib, bu sahədə mövcud bəzi problemlərdən danışıb.

Sonra elmi-praktik konfrans öz işini “Müasir metodlarla arıçılıq məhsullarının istehsalı”, “Arıçılığın yetişdirilmə istiqamətində inkişafı və yem bazası”, “Arı xəstəlikləri və onlara qarşı mübarizə tədbirləri” mövzularında keçirilən bölmə iclasları ilə davam etdirib. Bölmə iclaslarının sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

Qeyd edək ki, konfrans iştirakçıları universitetin kampusunu gəzib, tədris korpusları və muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri ilə tanış olublar.

Aprel ayının 25-də isə konfrans iştirakçıları Naxçıvandakı nümunəvi arıçılıq təsərrüfatları ilə, həmçinin Şahbuz şəhərindəki “Şah-bal” Məhdud Məsuliyyətli Cəmiyyətində arıçılıq məhsullarının emalı prosesi ilə tanış olacaqlar.

**Mina QASIMOVA**

## Əkin kampaniyası sürətlə davam etdirilir

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, “Kənd təsərrüfatı ili”ndə torpaq mülkiyyətçiləri bol məhsul istehsalı üçün yaradılmış şəraitdən səmərəli istifadə etməyə səy göstərirlər. Bu cəhətdən muxtar respublika iqtisadiyyatında ən önəmli yer tutan taxılçılığın intensiv və ekstensiv üsullarla inkişafına xüsusi diqqət yetirilir. Məlumatda bildirilir ki, regionun torpaq mülkiyyətçiləri ötən ilin payızında cari ilin məhsulu üçün 30 min 166 hektar sahədə taxıl əkini aparıblar. Əkinlərə vaxtında və aqrotexniki qaydalarla qulluq göstərildiyindən sahələrdə normal cücərti alınıb.

Torpaq mülkiyyətçiləri yazlıq əkinləri də sürətlə davam etdirirlər. Belə ki, aprelin 24-dək şum qaldırılmış 9738 hektar sahənin 8350 hektarında müxtəlif kənd təsərrüfatı məhsulları əkilib. Əkilən sahələr suvarılıb. Şum qaldırılması və əkin kampaniyası, əkilmiş sahələrin suvarılması diqqət mərkəzindədir.

## Yeni meyvə bağlarının salınması həm də istehsal müəssisələrinin qurulmasına şərait yaradır

Blokada şəraitində yaşamağa məcbur edilən muxtar respublikamız son 20 ildə “Naxçıvan möcüzəsi” kimi tarixə düşən böyük bir inkişaf yolu keçib. “Naxçıvan möcüzəsi” Heydər Əliyev yoluna sədaqətin, dahi şəxsiyyətin ağır blokada səddini yarıb keçən müdrik siyasətinin təntənəsidir. Muxtar respublikamızda regionumuz üçün strateji əhəmiyyət daşıyan neçə-neçə irimiqyaslı layihələr reallaşdırılıb, yeni su elektrik stansiyaları tikilib istifadəyə verilib, Naxçıvana təbii qazın nəqli bərpa olunub.

Qeyd olunan dövr ərzində əhali fasiləsiz elektrik enerjisi və təbii qazla təmin edildi. Böyük təşəbbüskarlıqla həyata keçirilən kütləvi iməciliklər yolu ilə bir zamanlar təbiətə vurulan ziyan aradan qaldırıldı, yaşıllıq sahələri bir neçə dəfə genişləndirildi. Yol kənarlarında, ayrı-ayrı sahələrdə miskin görkəmi ilə ürəkləri dağlayan və o dövrün acı xatirələrini özündə yaşadan ağac kötüklərinin yerində balaca fidanlar əkildi, qayğı göstərildi, ərsəyə gətirildi. Dağ yamaclarında salınan yaşıllıqlar ölkəmizdə ilk dəfə olaraq muxtar respublikamızda tətbiq edilən damcı üsulu ilə suvarıldı, qızmar yay günlərinin istisindən qorundu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamla təsdiq etdiyi “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” meyvəçiliyin və tərəvəzçiliyin inkişafına stimul verən yeni bir mərhələnin əsasını qoydu. Sahibkarlara dövlət maliyyə dəstəyi göstərildi, meyvə bağları salındı. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verdi, çəkilən zəhmət hədər getmədi. Yerli torpaq və iqlim şəraitinə uyğun əkilən körpə fidanlara aqrotexniki qaydada qulluq edildi, meyvə bağları ildən-ilə genişləndirildi. “Təbiətin ağciyəri” adlandırılan yaşıllıqlara bir vaxtlar balta çalmaq məcburiyyətində qalan insanların ana təbiətə vurduğu ziyan nəinki aradan qaldırıldı, hətta ərazisinin 0,6 faizini yaşıllıqlar təşkil edən muxtar respublikamızda bu rəqəm 12 faizə çatdırıldı. Bu, muxtar respublikamızın təbiətini zənginləşdirməklə bərabər, qədimliyi saxlanılmaqla yeniləşən Naxçıvanın gözəlliyinə yeni çalarlar qatır, əhalinin sağlamlığının qorunmasında mühüm rol oynayan keyfiyyətli yerli ərzaq məhsulları ilə təminatda da böyük əhəmiyyət kəsb edir. Minbir əziyyətlə ərsəyə gətirilən meyvə bağlarında yetişdirilən məhsulun tədarük olunub saxlanılması, istehlakçılara çatdırılması və emal olunması da mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılır. Ayrı-ayrı rayonlarda yerli xüsusiyyətlərə uyğun emal və sənaye müəssisələri qurulur, əhalinin fasiləsiz olaraq meyvə-tərəvəz məhsulları ilə təminatına əlverişli şərait yaradılır, soyuducu anbarlar, istixana kompleksləri tikilib istifadəyə verilir. Əhalinin bazar qiymətlərindən ucuz ərzaq məhsulları ilə təminatı üçün hər həftənin şənbə və bazar günləri kənd təsərrüfatı məhsullarının satışı yarmarkaları keçirilir.



***Ordubad meyvələrinin şöhrəti özünə qaytarılır***

“Bağlar diyarı”nı bağsız qoyan zamanın hökmü ilə barışmayan ordubadlılar da qədim diyarın təsərrüfatçılıq ənənələrini bərpa etmək üçün səfərbər oldular. 20 illik zaman kəsiyində muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Ordubadda da ağır zəhmət bahasına meyvə bağları salınıb ərsəyə gətirildi. Muxtar respublikamızda barverən meyvə bağlarından hər il bol məhsul götürülür. Ancaq “bağlar diyarı” adlandırılan Ordubad meyvələri özünəməxsusluğu ilə seçilir. Bu özünəməxsusluq ondadır ki, bu rayonda yetişən meyvələr dad-tamına görə digərlərindən fərqlənir və bu meyvələr uzun illərdir, nəinki Azərbaycanda, dünyanın müxtəlif ölkələrində də öz adı ilə məşhurdur. Keçmiş zamanlarda bura yolu düşən səyyahlar xatirələrində bu meyvələr haqqında dəfələrlə bəhs edib, bu bölgədə yetişən meyvələrin özünəməxsusluğundan danışıblar. Müxtəlif zamanlarda Ordubad meyvələri dünyanın ayrı-ayrı ölkələrində sərgiyə çıxarılıb və qızıl medala layiq görülüb.




***“FH oğulları” Məhdud Məsuliyyətli Cəmiyyəti də bu işə öz töhfəsini verir***

Muxtar respublikamızda özəl bölməyə, sahibkarlıq fəaliyyətinə yaradılan münbit şəraitdən bəhrələnən sahibkar Hüseyn Fərzəliyevin bugünkü sahibkarlıq fəaliyyətində bu qədim diyarın özünəməxsusluğu və göstərilən dövlət qayğısı böyük rol oynayıb. Sahibkar Ordubad meyvələrindən hazırlanmış müxtəlif mürəbbələr istehsal etməklə həm də bu özünəməxsusluğu təbliğ etməkdədir. Göstərilən dövlət dəstəyi hesabına istehsal müəssisəsi qurub. Rəhbərlik etdiyi “FH oğulları” Məhdud Məsuliyyətli Cəmiyyətində Ordubad mürəbbələrinin istehsalı ilə məşğuldur. Hüseyn Fərzəliyevlə elə adıçəkilən müəssisədə görüşdük. Müsahibim məlumat verir ki, müəssisə 2008-ci ildən fəaliyyət göstərir. Ötən müddət ərzində bir neçə dəfə güzəştli kreditlərdən yararlanaraq istehsal üçün zəruri şəraitin təmin edilməsinə nail olub. 300 kvadratmetr sahəyə malik müəssisədə hazırda 11 çeşiddə dad-tamı ilə seçilən (ərik, tut, badımcan, gilas, qovun, cəviz, gül və sair) mürəbbə istehsal edilir. Mürəbbə bişiriləcək meyvələr əvvəlcə gigiyenik qablara uyğun bir neçə mərhələdə yuyulur, təmizlənir, bəziləri doğranır, sonra isə müvafiq reseptlərə uyğun olaraq bişirilir. Mürəbbələr 250, 650 qramlıq, 1,2 və 2,4 kiloqramlıq çəkilərdə olan taralarda qablaşdırılır. Bundan əlavə, 250 qramlıq mürəbbələr 4-lük və 6-lıq saylara uyğun paketlənir.

Müsahibim onu da bildirir ki, ötən il müəssisənin məhsullarına tələbatda ilk yeri 2 tonla cəviz mürəbbəsi tutub, sonrakı yerlərdə isə 1,5 ton çəki ilə gül, 800 kiloqram çəkidə isə gilas mürəbbələri olub. Eyni zamanda müəssisədə yeni istehsal sahəsi yaradılıb, meyvə-tərəvəz qurudulması üçün də müəyyən işlər görülüb. Qardaş Türkiyə Respublikasından meyvə-tərəvəzin qurudulmasında istifadə olunan avadanlıqlar alınıb gətirilərək quraşdırılıb. Ötən mövsüm meyvə bağı becərənlərdən kifayət qədər meyvə alınıb, bunun 700 kiloqramı qurudulub 0,5, 1, 3 və 5 kiloqram çəkidə qablaşdırılaraq satışa çıxarılıb. Bu, sahibkarların yetişdirdikləri meyvələrin müəssisə tərəfindən alınaraq onların gəlir əldə etmələrinə, istehlakçıların isə Ordubad meyvələrindən hazırlanmış məhsullardan ilin bütün fəsillərində faydalanmasına imkan verir. Sahibkar onu da vurğulamağı yaddan çıxarmır ki, daxili bazarın tələbatına uyğun istehsal olunan, dadı və tamı ilə seçilən bu yerli məhsulların alıcıları arasında muxtar respublikamıza ayrı-ayrı ölkələrdən səfər edən turistlər də az deyil və onların sayı ildən-ilə artır. Bu yerli məhsullara artan marağı nəzərə alaraq onların gələcəkdə xarici bazarlara çıxarılması da nəzərdə tutulur. İnanırıq ki, dadlı Ordubad mürəbbələri qısa bir müddətdə xarici bazarda da öz layiqli yerini tutacaq, qədim diyarın bir zamanlar məşhur olan meyvələrinin şöhrətinin bərpa olunmasına öz töhfəsini verəcək. Bütün bunlar qədim Ordubad diyarının, muxtar respublikamızın tanıdılması və təbliği baxımından mühüm əhəmiyyətə malikdir.

**✍ Kərəm HƏSƏNOV**

## Yeni yaşayış binası tikilir

Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafında mühüm rol oynayan tikinti-quruculuq tədbirləri bütün sahələri əhatə edir. Son illər ərzində həyata keçirilmiş bu kimi tədbirlər hesabına paytaxt Naxçıvan şəhəri müasir görkəm alır, yeni yaşayış binalarının tikilməsi və ya mövcud binaların əsaslı şəkildə yenidən qurulması nəticəsində əhalinin rahat yaşayış imkanları genişlənir.

Təbii ki, əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində görülən işlər yaşayış binaları sakinlərinin rahatlığının təmin olunması, onların yaşayış şəraitinin daha da yaxşılaşdırılması məqsədi daşıyır.

Görülən işlərin davamı kimi hazırda Naxçıvan şəhərinin Əliqulu Qəmküsar küçəsində 8 mərtəbəli yeni yaşayış binasının tikintisi davam etdirilir. Tikinti işlərinə cari ilin mart ayında başlanılıb. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları binanın birinci mərtəbəsində beton-qəlib işlərini başa çatdırıb, ikinci mərtəbə üçün hazırlıq işləri aparırlar. 450 kvadratmetr sahədə ucaldılacaq binada 32 mənzil yerləşəcək ki, bu mənzillərdən 8-i üçotaqlı, 24-ü isə ikiotaqlı olacaq.

Naxçıvan şəhərinin “Əlincə” məhəlləsində yerləşən 20 nömrəli yaşayış binasında isə mart ayının əvvəllərindən əsaslı yenidənqurma işlərinə başlanılıb. Ötən müddət ərzində 50 mənzildən ibarət olan 5 mərtəbəli binada bütün pəncərələr dəyişdirilib, dam örtüyü vurulub, arxa fasad hissə birinci mərtəbəyədək üzlük travertin daşla üzlənib, digər hissələr isə müasir dizayn elementləri ilə zənginləşdirilib. Binanın ön hissəsində bütün mərtəbələrdəki balkonlar yenidən hörülərək müasir görkəmə salınıb. Hazırda burada suvaq işləri aparılır, binanın daxilində isə yeni pilləkənlərin qoyulmasına başlanılıb. Yaşayış binasının zirzəmi hissəsi də təmizlənərək divarları suvanıb, rabitə və elektrik xətlərinin çəkilişi başa çatdırılıb.

Qeyd edək ki, bu obyektdə əsaslı yenidənqurma işlərinin aparılması “Cahan İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçılarına həvalə olunub. Hər iki obyektdə yerli tikinti materiallarından istifadəyə üstünlük verilməklə yanaşı, təhlükəsizlik qaydalarına nəzarət də diqqət mərkəzində saxlanılır.

**Xəbərlər şöbəsi**

*Beynəlxalq Əqli Mülkiyyət Günü 2000-ci ilin sentyabr ayında Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Baş Assambleyasının qərarı ilə təsis edilmişdir. Ölkəmizdə 2001-ci ildən başlayaraq hər il aprelin 26-sı "Beynəlxalq Əqli Mülkiyyət Günü" kimi qeyd edilir.*

Təşkilatının tələblərinə uyğunlaşdırılmış normativ-hüquqi sənədlərlə tənzimlənir. 2012-ci ildə "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunması isə bu sahədə həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirmişdir.

diyyata alınaraq sahibkarlara verilmişdir. Komitənin tərkibində fəaliyyət göstərən elmi-texniki kitabxanada patent fondu komplektləşdirilmişdir. Hazırda kitabxananın fondunda xarici ölkələrə məxsus 3 min 655, muxtar respublikanın rezidentlərinə məxsus 22 ixtira üzrə patentlər və bundan əlavə, əmtəə nişanları,

*26 aprel Beynəlxalq Əqli Mülkiyyət Günüdür*

# Muxtar respublikada əqli mülkiyyət hüquqları qorunur

Əqli mülkiyyət sahəsi qlobal inkişafın əsas hərəkətverici ünsürlərindən biridir. Hər bir ölkənin davamlı inkişafında əsas rol oynayan əqli mülkiyyət məsələlərinin milli qanunvericiliyə inteqrasiyası vacib şərtdir. Azərbaycan Respublikasında əqli mülkiyyətlə bağlı münasibətlərin tənzimlənməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin rəhbərliyi ilə bu istiqamətdə mühüm işlər görülmüş, əqli mülkiyyətin qorunması və inkişafına diqqət artırılmış, zəngin qanunvericilik bazası yaradılmışdır. 1996-cı ildə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", 1997-ci ildə "Patent haqqında", 1998-ci ildə "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuş, ölkəmiz 1995-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təsis etdiyi Konvensiyaya və Avrasiya Patent Konvensiyasına qoşulmuş, Avropa Patent Təşkilatı ilə əməkdaşlıq əlaqələri qurmuşdur.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycanda əqli mülkiyyət sistemi daha da təkmilləşdirilmiş, müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları sahəsi prioritet istiqamətlərdən birinə çevrilmişdir. Azərbaycan əqli mülkiyyət hüquqlarının qorunması sahəsində beynəlxalq sistemə uğurla inteqrasiya olunmuş, yaradıcılıq fəaliyyətinin nəticəsi olan elm, ədəbiyyat və incəsənət əsərlərinin qorunmasına hüquqi zəmin yaradılmışdır. Ümumilikdə, əqli mülkiyyət sahəsi, ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilər ölkəmizdə Ümumdünya Ticarət

Əqli mülkiyyətin qorunması və inkişafı sahəsində aparılan dövlət siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin intellektual mülkiyyətin stimullaşdırılmasına böyük diqqəti və qayğısının nəticəsidir ki, muxtar respublikada əqli mülkiyyətin və əqli mülkiyyət obyekti olan ənənəvi biliklərin mühafizəsi təmin olunur və davamlı inkişaf etdirilir.

Naxçıvanda əqli mülkiyyəti formalaşdırmaq və muxtar respublikanın regional inkişafına uyğunlaşdırılaraq sənayedə tətbiqini təmin etmək istiqamətində Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin üzərinə böyük vəzifələr düşür. Komitə tərəfindən sənaye mülkiyyəti obyektlərinin mühafizəsi üçün əqli mülkiyyətin qorunması sahəsində müvafiq tədbirlər həyata keçirilir, əqli mülkiyyətin və patent sahəsinin inkişafına stimul verən tədbirlər təşkil olunur.

Komitəyə bu günə kimi ixtiraya dair iddia sənədinin qeydiyyata alınması üçün 63, sənaye nümunəsinə dair 115, faydalı modelə dair isə 6 müraciət daxil olmuş və dövlət ekspertizası aparılmışdır. Ekspertiza zamanı qüvvədəolma müddəti 20 il olmaqla, 22 ixtiraya, qüvvədəolma müddəti 10 il olmaqla, 32 sənaye nümunəsinə və 1 faydalı modelə patentin verilməsi təmin edilmişdir. Həmçinin ötən dövrdə əmtəə nişanlarına və coğrafi göstəricilərə mühafizə sənədi almaq üçün 1548 iddia sənədi daxil olmuşdur ki, bunlardan qüvvədəolma müddəti 10 il olmaqla, əmtəə nişanlarına dair 826, coğrafi göstəricilərə dair 4 şəhadətnamə dövlət reyestrində qey-

coğrafi göstəricilər, ixtiralar, faydalı modellər, sənaye nümunələrinə dair rəsmi bülletenlər və yeni ədəbiyyatlar toplanmışdır.

Muxtar respublikada xarici dildə yazılan qanunsuz reklam üsullarından istifadənin, reklamına yol verilməyən dərman vasitələrinin reklam lövhəsindən istifadənin, əmtəə nişanlarından qanunsuz istifadənin qarşısının alınması diqqət mərkəzində saxlanılır. Komitə tərəfindən "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Reklam yayımına icazə (razılıq) verilməsi Qaydaları"na və Azərbaycan dilinin orfoqrafiya qaydalarına əsasən, müstəsna hüququ olmayan əmtəə nişanlarından, xarici dildə yazılan reklamlardan istifadənin qarşısının alınması məqsədilə monitorinqlər davam etdirilir və buna uyğun müvafiq tədbirlər görülür.

Əqli mülkiyyətin inkişaf etdirilməsi, ixtiraların sənayedə tətbiqi və alınmış patentlərin beynəlxalq mühafizəsi istiqamətində işlər bundan sonra da davam etdiriləcəkdir. Texniki və iqtisadi siyasət istiqamətində intellektual kapitaldan istifadənin genişləndirilməsi və texnoloji inkişafın stimullaşdırılması, kontrafakt malların dövriyyəsinə qarşı mübarizə tədbirlərinin genişləndirilməsi davamlı qaydada təşviq olunacaqdır.

**Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

## Tələbələr Cəmşid Naxçıvanskinin ev-muzeyində oldular

Görkəmli hərbi xadim, Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 9 aprel tarixli Sərəncamı ilə Tədbirlər Planı təsdiq edilib. Tədbirlər planına əsasən, görkəmli sərkərdənin yubileyi geniş qeyd olunur.

"Naxçıvan" Universitetinin tələbələri Cəmşid Naxçıvanskinin ev-muzeyində oldular. Muzeyin baş elmi işçisi, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Gülnaz Hüseynova tələbələrə muzey haqqında ətraflı məlumat verərək bildirib ki, ev-muzeyi Kəngərli xanları nəslinin nümayəndəsi, Azərbaycan atıcı diviziyasının komandiri, general Cəmşid Naxçıvanskinin anadan olmasının 85 illiyi ilə əlaqədar 1981-ci ildə onun yaşadığı evdə yaradılıb. Muzeydə C.Naxçıvanskinin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, orden və medallar, müxtəlif sənədlər, kitablar, məktub və əlyazmalar, şəxsi və ev əşyalarından ibarət 6 minə yaxın eksponat qorunub saxlanılır ki, onlardan 1000-ə yaxını ekspozisiya zalında nümayiş etdirilir. Bunlar içərisində C.Naxçıvanskinin ilk hərbi təhsil illərinə aid fotoşəkillər, Birinci Dünya müharibəsinə aid sənədlər, 1918-20-ci illərdə milli orduda hərbi xidmətləri, 1921-31-ci illərdə Azərbaycan ilk milli atıcı diviziyasına komandirliyi dövrünə aid fotoşəkillər, eləcə də 1931-33-cü illərdə Frunze adına Hərbi Akademiyada təhsil aldığı və 1933-cü ildən hərbi pedaqoji fəaliyyətə başladığı illərə dair qiymətli sənədlər var.

Muzeyin ekspozisiya zalında XVIII -XIX əsrlərə aid Naxçıvan xanlarının şəcərə cədvəli də maraq doğurur. Muzeyin digər zalları isə memorial otaqlar kimi nümayiş etdirilir. Bu otaqlarda Kəngərlilər nəslinə aid ev və məişət əşyaları qorunub saxlanılır.

Tələbələrin diqqətinə çatdırılıb ki, son illərdə əldə edilən eksponatlar əsasında C.Naxçıvanskinin ömrünün son günlərini əks etdirən guşə də yaradılıb. Həmin guşədə 1930-cu illər repressiya qurbanlarının C.Naxçıvanskinin timsalında hansı təqiblərə məruz qaldığı öz əksini tapıb.

Tələbələr muzeydəki eksponatlarla tanış oldular, onları maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**



*Turizm*

# Daxili turizm idxaləvəzləyici mühüm vasitədir

*"Turizmin əhəmiyyəti nədir?" sualı ilə maraqlanan oxucularımız üçün qısa bir giriş. Turizm kosmosun fəthi, internetin kəşfi kimi dünyanın yeni möcüzələri arasında inamla yer tutaraq insanların mənalı asudə vaxt keçirmək tələbatının ödənilməsində mühüm rol oynayır. Məhz bu səbəbdəndir ki, bu gün dünya üzrə il ərzində aktiv səyahətə çıxan turistlərin sayı, təqribən, 1 milyard nəfərə, onların xərclədiyi vəsaitin və yaxud turistlərə xidmət edən sektorun illik gəlirləri 1 trilyon ABŞ dollarına çatmaqdadır.*

Göründüyü kimi, rəqəmlər çox cəlbedicidir və maraqlısı odur ki, dünya iqtisadiyyatında nə baş versə də, turizm öz dinamikası ilə inkişaf etməkdə, turistlər marağı olan və maddi imkanı çatan hər yerə səyahətdən qalmamaqdadırlar. İstər yay, istərsə də qış fəsli üçün olsun, hər turizm mövsümü başlayanda ölkələrin dövlət və hökumət başçılarından tutmuş sektorun inkişafına maraqlı olan hər bir sahibkara, hər bir vətəndaşa qədər hamı daha keyfiyyətli turizm xidmətləri göstərmək, onun faydalarından daha çox yararlanmaq haqqında düşünür. Səyahət edən turistlərin isə bir marağı vardır: münasib qiymətlərlə yaxşı xidmətlər alıb, dolğun təəssüratla evə qayıtmaq. Dövlətin də turizmdən gözlədiyi maraqları nəzərə alsaq, turizmin cəmiyyətdə, demək olar ki, hər kəsin mənafelərinin kəsişdiyi bir nöqtədə olduğunu demək olar.

Turizm cəmiyyətin inkişafına təkan verdiyi kimi, özü də cəmiyyətin iqtisadi-mədəni inkişafının, sosial rifahın, düzgün iqtisadi idarəetmənin nəticəsində yaranır. Yəni bir çoxlarının dediyi kimi, turistlər yüzlərlə, hətta minlərlə kilometr yol qət edərək yalnız qalacaqları otelin müasirliyinə, yaxud regionda öz təqdimatını gözləyən abidəyə baxmaq üçün gəlmirlər. Hər halda sırf turizm məqsədli səyahət edənlər yaxşı bilirlər ki, turistlərin öz xüsusi motivləri vardır və bunlar yalnız zərf halında təklif olunan xidmətlər sayəsində mümkün olur. Turizm maarifçiliyi və Naxçıvan Muxtar Respublikasının turizm potensialının tanıdılması ilə əlaqədar gələcək yazılarda söhbət açmaq istədiyimiz destinasiya planlaşdırılması problemləri də özündə bu məsələni ehtiva edir. Çünki turistlər haradan gəlirsə gəlsin, onlara xidmət edən turizm sektoru bir mexanizm kimi dəqiq işləyərək öz məqsədlərinə çatmalıdır. Məqsəd isə aydındır: yaxşı gəlir və ölkənin tanıdılması.

Biz bacardığımız qədər müxtəlif vasitələrlə turizmin cazibədarlığından bəhs edir və bu mövzuda dostlarımızla dialoqlara da qoşuluruq. Şübhəsiz, ölkəmizin və muxtar respublikamızın zəngin təbiəti və tarixi-mədəni ehtiyatları ilə bərabər, insanların sosial-mədəni tələbatlarını ödəyən müasir infrastruktur da bu söhbətlər zamanı bizim ən güclü arqumentlərimizdəndir. Ancaq turizmi, yəni mənalı istirahətin təşkilini bir biznesə, peşəkar qonaqpərvərliyi gəlir sahəsinə çevirə bilmək üçün qarşıda hələ



çox işlər olduğu görünməkdədir. Beynəlxalq turizmdən valyuta gəlirləri əldə edib ölkənin ödəmə balansını gücləndirmək, xarici turistlərə bir təbliğat vasitəsi kimi ölkəmizi tanıtmaq bu baxımdan cazibədardır. Bununla yanaşı, vətəndaşlarımızın hər hansı qiymətə xaricdəki istirahətini əvəz edə biləcək daxili turizm xidmətlərimiz hazırda dövlətimiz tərəfindən israrla həyata keçirilən idxaləvəzedici əmtəə və xidmətlər istehsalı strategiyasının əsas tərkib hissələrindən biri kimi diqqəti cəlb edir.

Daxili turizm beynəlxalq turizmin tərkib hissələrindən biri olan getmə turizmə ən yaxşı alternativdir. Şübhəsiz, hər bir vətəndaş öz marağı və tələbatına görə ona lazım olan istirahət və rekreasiya xidmətlərini harada olsa, alacaqdır. Turizmin gücü də bundadır. Yəni bizim vətəndaşlarımız, sadəcə, istirahət üçün yayda qonşu ölkələrə üz tutduğu kimi, Naxçıvanın Duzdağında müalicə olunmaq istəyən, yaxud XII əsr memarlığının şah əsərlərindən olan Möminə xatın məqbərəsini öz gözləri ilə görmək istəyən müasir turistlər hansı yollarla olursa olsun, hökmən Naxçıvan marşrutunu seçəcəklər. Ona görə də bunun kimi onlarla, yüzlərlə sayda turizm ehtiyatlarımızı fəal turizm dövriyyəsinə cəlb edib potensialımızı reallaşdırmalıyıq. Daxili turizmə elə bir səviyyədə diqqət artırılmalıdır ki, o, beynəlxalq turizm sektorunun mövsümi durğunluğu, yaxud valyuta kurslarının dəyişilməsi kimi vəziyyətlərdə onu əvəz edə bilsin. Əgər sırf səyahətdən söhbət gedirsə, nəinki ölkəmizin başqa regionlarından Naxçıvana gələcək olan turistlərin, hətta muxtar respublikamızın öz səyahətsevərlərinin regionumuzun görməli yerləri ilə tanış olduğunu qətiyyətlə deyə bilmərik. Misal üçün, görəsən, nə qədər sayda tələbəmiz Gəmiqaya abidələri, Qarabağlar türbəsi, yaxud Batabat yaylağındakı Fərhad evi ilə tanışdır? "Muxtar respublikamızı tanıyırıq?" deyə, bir sorğu təşkil olunsa, neçə nəfər tam təəssüratla çıxış edə bilər. Təqribən, üç il əvvəl Bakıdan gəlmiş iki nəfər qonağımızı Duzdağa baxmağa dəvət edərkən bir neçə müəllim həmkarımız da bizə qoşuldu. Şaxtadan çıxarkən həmin qonaqlarla bərabər, müəllim yoldaşlarımdan biri də aldığı təəssüratdan öz təşəkkürünü bildirdi. Mən inanıram ki, belə bir ekskursiya marşrutu olsaydı, həmin 60 yaşlı naxçıvanlı müəllim yoldaşımız nə qədər işi-gücü olsa da, pulunu ödəyib Duzdağa baxmağa gedərdi. Turist marağı kəsb edən hər bir şəhərdə şəhəriçi, yaxud şəhərətrafı ekskursiyalar təşkil olunur. Ola bilsin ki, bu ekskursiyalar şagirdlər və tələbələr üçün pulsuz olsun. Ancaq yay fəsli yaxınlaşdıqca hər şənbə və bazar günləri təkcə Naxçıvan-Batabat marşrutu üzrə hərəkət edən fərdi avtomobillərin və mikroavtobusların sayı bəzən gün ərzində 500-dən yuxarı olur. Və burada da yaxşı sürücü, ərazini yaxşı tanıyan birisi, yəni bələdçi, yaxud insanlara qida servisi göstərəcək insanlar həmişə problem kimi qalır. Belə olduqda, yəni hər şeyin özünəxidmət olduğu halda, mənalı istirahətə vaxt qalmır. Amma halbuki daxili turizm marşrutu ilə gələn turistlərə xidmət xarici turistlərlə müqayisədə xeyli dərəcədə asandır.

***Bu sahədə əcnəbi dil, valyutadəyişmə, milli adətlərə yabançılıq, geyim və davranış ziddiyyətləri kimi problemli məsələlər yoxdur. Həm də daxili turizmdə özünü sınamış xidmət müəssisəsi gələcəkdə əcnəbilərə xidmət zamanı daha təcrübəli olacaq. Onların xidmətindən istifadəyə ödənilən vəsait isə valyuta ehtiyatları kimi ölkəmizdə qalacaq.***

**✍ Əli CABBAROV**

# Naxçıvan indi nurlu, işıqlı şəhərdir





*Günəş batır. Yavaş-yavaş qürub edir parlaq şəfəqlər. Gündüzlərin nazlı xanımı itir tutqun üfüqlərdə. Axşam düşür. Hava qaralır. Gecələrin sultanı olan Ay görünür buludların arasında. Ulduzları çağırır səmanın dərinliklərindən. Mavi kəhkəşan səssiz-səmirsiz təslim olur qaranlığa. Gecə başlayır, qaranlıq səssizcə yatmış şəhərin gözəlliklərinə süzülür. Aramla danışır, söhbətləşir oyaq sirdaşlarıyla. Şairlərin qələminə toxunur, rəssamların fırçasına. Bəzən də kövrək duyğu olub köçür pianonun dillərinə – hey danışır. Aramla, tələsmədən. Bir başqa görünür yatmış şəhərim sehrli gecənin işığında. Qaranlıqda açılan nurlu səhəri xatırladır. Yorğun küçələri, yolları parlaq nura qərq edən gecə lampaları göy üzündə sayrışan ulduzlara bənzəyir. Nə bir qorxu, nə bir tərəddüd. Yalnız rahatlıq var ürəklərdə...*

*Qədim Naxçıvanın möhtəşəm mənzərəsi gecəni də heyran qoyur özünə. Hər tərəfdə bərq vuran işıqlar, tər-təmiz küçələr, hamar yollar, bir-birindən yaraşıqlı binalar gecələr də gözəl görünür. Bu gün Naxçıvan zülmətdən, qaranlıqdan azad olmuş məmləkətdir. Bir zamanlar işığa həsrət qalmasına baxmayaraq, indi nura qərq olub. Qədim abidələrin, parkların, küçələrin, yolların işıqlı görünüşü qoca Şərqin ulu torpağını daha ecazkar edir. Keçmişə nəzər saldıqda gözlərimiz önündə ayrı bir mənzərə canlanır. Gecələri zülmət, evləri işıqsız, küçələri qaranlıq olan Naxçıvanın bugünkü gözəlliyindən fəxrlə danışılır, qürurla söhbət açılır. Naxçıvanlılar indi gecələri də gündüz kimi yaşayırlar. Bir-birindən gözəl binalar, məktəblər, yaraşıqlı müəssisələr işıqlandırma sistemləri sayəsində olduqca zərif və gözəl görünür. Bütün bunlar isə Naxçıvanı dünyada tanıdır, ona doğru yönəlmiş baxışları öz üzərində saxlayır. Əzəmətli torpaq isə əzəmətli görünür. Gecə-gündüz fərq etmədən...*



*Foto: Əli XUDİYEV*

## Çernobıl Atom Elektrik Stansiyasında baş verən qəzadan 29 il ötür



*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında Çernobıl Atom Elektrik Stansiyasında baş verən qəzanın 29-cu ildönümü münasibətilə tədbirlər keçirilib.*

Naxçıvan şəhərindəki Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Qadir Əliyev çıxış edərək bildirib ki, Çernobıl Atom Elektrik Stansiyasında baş verən və böyük fəlakətlərə səbəb olan texnoloji qəzanın nəticələrinin aradan qaldırılması işlərində muxtar respublikanın 500 nəfərə yaxın sakini də iştirak edib.

Qeyd olunub ki, ölkəmizdə Çernobıl qəzasının nəticələrinin ləğvində iştirak edən və həmin qəza nəticəsində zərərçəkən şəxslər daim dövlətimizin himayəsindədirlər. Onların statusu və sosial müdafiəsini tənzimləyən müvafiq normativ-hüquqi aktlar qəbul olunub.

Muxtar respublikada bu kateqoriyadan olan şəxslərin sosial müdafiəsinin təmin olunması, o cümlədən müalicələrinin təşkili, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, həmçinin onlara nəqliyyat və texniki-bərpa vasitələrinin verilməsi istiqamətində xeyli tədbirlər görülüb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Çernobıl Əlilləri Cəmiyyətinin sədri Eyvaz Əsgərov çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə Çernobıl əlilləri adından dövlətimizə minnətdarlığını bildirib.

Həmin gün rayon mərkəzlərində də Çernobıl faciəsinin ildönümü münasibətilə tədbirlər keçirilib. Tədbirlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və müvafiq rayon İcra Hakimiyyətinin nümayəndələri çıxış edərək Çernobıl qəzasının nəticələrinin ləğvində iştirak edən şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlərdən danışıblar.

Çernobıl qəzasının nəticələrinin ləğvində iştirak edən, ümumilikdə, 263 nəfərə ərzaq payı təqdim edilib.

Qeyd edək ki, 1986-cı il aprel ayının 26-da Çernobıl Atom Elektrik Stansiyasında XX əsrin ən faciəli texnogen qəzası baş verib. Dünyanı sarsıdan qəza tək atom elektrik stansiyasının yerləşdiyi Ukrayna Respublikasını deyil, bütün qonşu ölkələrdə yaşayanları da radiasiya təhlükəsi ilə üz-üzə qoydu. Hadisə zamanı 7 minə yaxın insan həlak oldu, radiasiya nəticəsində 25 min insanın sağlamlıq imkanları məhdudlaşdı, 300 min insan yaşayış yerini tərk etməyə məcbur oldu.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Uşağınızın normal eşitməsini istəyirsinizsə

### *O zaman audiometriya kabinəsinə müraciət edin*

Uşaqlarda eşitmənin qismən və ya tam itirilməsi əqli inkişafın zəifləməsinə səbəb olur, onlarda nitq pozğunluğu yaranır. Bu problemə muxtar respublikamızda da rast gəlinir. Odur ki, Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi istifadəyə veriləndən burada audiometriya kabinəsi fəaliyyət göstərir. Yenidoğulmuşların digər tibbi müayinələri ilə yanaşı, eşitmə qabiliyyətləri də yoxlanılıb müvafiq təyinatlar verilir. Türkiyə Respublikasının Ankara və Ərzurum şəhərlərinin tanınmış klinikalarında kurs keçmiş Zəminə Əliyeva həmin sahə üzrə yenidoğulmuşlara tibbi xidmət göstərir.

Yeni doğulan uşaqlarda qulağın bir çox xəstəlikləri eşitmə zəifliyinə səbəb ola bilər. Bu xəstəliklər isə bir sıra faktorlardan qaynaqlanır. Ailədə irsi karlıq və ağır eşitmə, qohum nikahlar, ananın keçirdiyi məxmərək, suçiçəyi, kəmərləyici dəmrov və digər infeksion xəstəliklər eşitmə zəifliyinin yaranmasına səbəb ola bilər. Xəstəliyin əmələ gəlməsinin və ya ağırlaşmasının qarşısını almaq məqsədilə ildə iki dəfə eşitmə müayinəsi məsləhət görülür. Hazırda adıçəkilən kabinədə eşitmə qabiliyyətinin qiymətləndirilməsi, diaqnostika və müalicəsi müasir avadanlıq və metodlarla həyata keçirilir. Onlardan ən mühümü audiometriya müayinəsidir. "Audio" latın sözü olub, "eşitmə", "metriya" isə "ölçmə" deməkdir. Audiometriya-elektroakustik cihazın köməyilə aparılan eşitmə müayinəsi xroniki və kəskin neyrosensor eşitmə zəifliyi, qulağın iltihabı, otoskleroz, eşitmə sinirinin nevrinoması kimi xəstəliklərə şübhə olduqda aparılır.

Audiometriya kabinəsində müayinə metodları otoakustik emisiya və BERA aparatı ilə həyata keçirilir. Aparat səs qıcığına qarşı daxili qulağın və beyin kötüyünün cavab reaksiyalarını qeyd edərək yeni doğulmuş və kiçikyaşlı uşaqlarda eşitmə patologiyasını aşkara çıxarır. Bu müayinələrin uşaq anadan olduqdan dərhal sonra aparılması mümkündür. BERA eşitmə zəifliyinin təyini üçün əvəzolunmaz müayinədir. Müayinə qısa vaxt ərzində və ağrısız aparılır. Mikroskop müayinəsi ilə qulağın təbii pərdəsi, eşitmə sümüklərinin vəziyyəti haqqında dolğun məlumat almaq mümkündür.

*Bir sözlə, uşaqların eşitmə qabiliyyətinin yoxlanılması üçün valideynlərin başqa ünvanlara üz tutub uzaq məsafə qət etmələrinə ehtiyac yoxdur. Həmin ünvan yaxındadır: Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin audiometriya kabinəsi uşaqların sağlamlığı keşiyindədir.*

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Şahbuzda voleybol birinciliyi

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar Şahbuz rayon ümumtəhsil məktəblərinin komandaları arasında voleybol üzrə keçirilən rayon birinciliyinə yekun vurulub. Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin, Şahbuz Rayon Gənclər və İdman İdarəsinin və Təhsil Şöbəsinin birgə təşkil etdiyi birincilikdə 6 komanda mübarizə aparıb. Yarışdan əvvəl rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Muradov, Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Fikrət Cəfərov çıxış edərək ümummilli lider Heydər Əliyevin idmana və gənclərə göstərdiyi qayğıdan danışıblar, yarış haqqında iştirakçılara məlumat veriblər.

Olimpiya sistemi ilə keçirilən yarışın nəticəsinə əsasən, Şahbuz Rayon Uşaq-gənclər idman məktəbinin komandası birinci yerə layiq görülüb. Biçənək kənd tam orta məktəbinin komandası ikinci, Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

Sonda komandalara təşkilatçılar tərəfindən hədiyyələr və diplomlar təqdim edilib.

## Sədərək rayonunda futbol birinciliyinə yekun vurulub

Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin, rayon Gənclər və İdman İdarəsi və Uşaq-gənclər idman məktəbinin birgə təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin komandaları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilmiş mini-futbol üzrə rayon birinciliyi keçirilib.

Birinciliyi Sədərək Rayon Gənclər və İdman İdarəsinin rəisi Etibar Əliyev açaraq əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan idman siyasətindən, idmana göstərilən diqqət və qayğıdan danışıb. Qeyd olunub ki, bu gün idmanın inkişafına göstərilən diqqət və qayğı Naxçıvan Muxtar Respublikasında da ən yüksək səviyyədədir.

Dairəvi sistemlə keçirilən birincilikdə bütün rəqiblərini üstələyən Uşaq-gənclər idman məktəbinin komandası qalib adını qazanıb. Onlar finalda Sədərək kənd 2 nömrəli tam orta məktəbin komandasını məğlub ediblər. Sədərək kənd 1 nömrəli tam orta məktəbin komandası isə üçüncülüklə kifayətlənib.

Sonda qaliblərə təşkilatçılar tərəfindən kubok, futbol topları, idman geyimləri və diplomlar təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi

### *2015-ci il üçün kotirovka elan edir*

*Yaz-yay mövsümü üçün əşya əmlaklarının satın alınması.*

Kotirovka 27 aprel 2015-ci il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 28 aprel 2015-ci il tarixdə saat $11^{00}$-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Əlaqələndirici şəxs: Cabbarov Murad Rasim oğlu*
*Telefon/Faks: 544-48-34*
*Ünvan: Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi*


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 336